## ÖZ DÜNYAM MÄNİM

**Bäxtiyar Vahabzade**

Qäzadan, qädärdän hälä uşaqkän
Gözläri tutuldu Âşıq Veysäl'in.
Getdi arxasınca. o getdi ärkän
Qälbindä yaxdığı odun, mäş'älin.
Zülmätä nur saçdı bir mäş'äl täki,
Eşqini göz bildi, nur saçdı Veysäl.
Zülmätä göz yumub
                öz qälbindäki
İşıqlı dünyaya qapandı Veysäl
Gözünü açarıq -dedi - häkimlär,
O razı olmadı ämäliyyata.
Dedi: Korluğumla bir zärrä qädär
Küskün deyiläm ki, män bu häyata.
Dünya necädirsä qoy olsun elä,
Amandır, mäni dä rahat qoyun siz.
Mänim öz qälbimdä, öz üräyimcä
Qurduğum dünyaya toxunmayın siz.
Än şirin än gözäl diläklärimdän
Sältänät qurmuşam öz qälbimdä män.
O mänim xäyalım, o mänim rö'yam.
Mänim öz dünyama tapılmaz äväz.
Bunu biliräm ki,
                Xäyalî dünyam
Sizin dünyanıza äsla bänzämäz.
Dünyam dünyanıza ägär tay olsa
Solar içimdäki gülüm, gülşänim.
Ondan qorxuram ki, gözüm açılsa
Dağılıb yox olar öz dünyam mänim.

Dayazı görmürdü kor baxışları
Därini görürdü...
                Onun nä därdi!
Çärdäkdä ağacı, çiçäkdä barı,
Baxışda üräyi göräbilirdi.

Min şe'r yatırdı här näfäsindä
Bülbül täk ötürdü gül häväsindä,
Çiçäyin ätrindä, quşun säsindä
Yatan mä'naları tapandı Veysäl.

Odu suda gördü, xeyiri şärdä,
Sävincin sirrini tapdı kädärdä,
Gözlü'nün yähärdän aşdığı yärdä
Atını dört yana çapandı Veysäl...

Nisan, 1980
(Azerbaycan; *Edebî-Bediî Jurnal,*
1981-1, s. 3)

**Kelimeler:**

Qäza, qädär: Kaza, kader.

uşaq : Çocuk.

qälb: Kalp, gönül.

täk, täki: Gibi.

kor: Kör.

zärrä qädär: Zerre kadar, çok küçük

tapılmaz: Bulunmaz.

äväz : Karşılık.

tay: Denk, eş.

dayaz: Sığ, derinliği olmayan.

çärdäk: Çekirdek.

bar: Yemiş, meyve.

yähär: Eyer.

çap- : Koşmak, ulaşmak, yaymak.

min: Bin.